**BƏRBƏR kvalifikasiyasına aid nümunə suallar**

**Modul: Bərbər işinin təşkili**

Təlim nəticəsi: İstehsalat sanitariyasının norma və qaydaları

Bərbər ildə neçə dəfə profilaktik tibbi müayinədən keçməlidir?

A) Bir dəfə
B) Üç dəfə
C) İki dəfə
D) Heç vaxt

İlk tibbi yardim ücün qankəsici vasitə hansıdır?

A) Sabun
B) 3-6%-li perekis
C) Lokon
D) Spirt

Təlim nəticəsi: Bərbərin iş yerinin hazırlanması

Bərbərxanada pəncərə ilə əks divar arasında minimum neçə metr olmalıdır?

A) 7 m
B) 2 m
C) 5 m
D) 10 m

Təlim nəticəsi: İstehsalat sanitariyasının norma və qaydaları

Dezinfeksiyadan sonrakı əməliyyat hansıdır?

A) Ütüləmək
B) Sanitariya
C) Sterilizasiya
D) Qaynatmaq

**BƏRBƏR kvalifikasiyasına aid nümunə suallar**

**Modul: Alət və avadanlıqlar**

Təlim nəticəsi: Bərbərxanada istifadə olunan material və vasitələrin istifadəsi

Bərbərin hansı işində yalnız sintetik vasitələrdən istifadə olunur?

A) saç düzümü, rəngləmə
B) saç düzümü
C) saç kəsimi
D) rəngləmə, kimyəvi burulma

Təlim nəticəsi: Bərbərxanada alətlərdən istifadə qaydasını bilir və izah edir

Aşağıda verilmiş elektrik alətlərindən hansı həm saçın burulmasında, həmdə düzləndirilməsində istifadə olunur?

A) 

B) 

C) 

D) 

-----------maşınlar əldə titrəmir. Onların ülgücləri çıxarılır. Bu maşınlarla saçı 0,1...9,5 mm qədər hündürlükdə kəsmək mümkündür. Onların işlədilməsi çox rahatdı. Ülgücünü itiləmək və dəyişmək mümkündür. Söhbət hansı maşından gedir?

A) Trimer
B) Vibrasiyalı
C) Rotorlu
D) Braun

**BƏRBƏR kvalifikasiyasına aid nümunə suallar**

**Modul: Saç düzümləri**

Təlim nəticəsi: Saç düzümünün növlərini tanıyır, rəsmini təsvir edir və nümayiş edir

Saç düzümü yığanda hansı amillərə diqqət yetirmək vacibdir?

A) saçın uzunluğu, saçın rəngi, qıvrımlığına
B) saçın rəngnə üz quruluşuna və teksturasına
C) müştərinin istəyi, saçın kəsiminə
D) Saçın qalınlığı, forması, qısalığına

Təlim nəticəsi: Müxtəlif hörükləri bacarır, rəsmini təsvir edir və nümayiş edir

Papaq formalı hörüyün texnikasını müəyyən edin. Yalnız bir cavab seçin



A) Saçlar daranır daxili zonadan başlayaraq hörülərək dairəvi hərəkətlə yerinə yetirilir
B) Təpə hissədən başlayaraq dairəvi hörülür
C) Gicgah hissədən başlayaraq qövsvari hörülür
D) Xarici zonadan başlayaraq dairəvi hörülərək, daxili zonada sonlanır

Təlim nəticəsi: Saç düzümünün növlərini tanıyır, rəsmini təsvir edir və nümayiş edir

Uzun boylu adamlara aşağıdakılardan hansını etmək məsləhət <u>GÖRÜLMÜR</u>?

A) İri ölçülü bəzək əşyaları
B) Hündür saç düzümü
C) Sığallı daranmış saçlar
D) Qısa kəsilmiş saçlar

__________saçı formaya saldıqda yumşaq saçlar elastik və daha yatımlı olur. Cod saçlar isə formaya çətin salınır, düzüm saçda çox qalmır. Düzümə başlamazdan əvvəl saç kökündən ucuna qədər yaxşı daranır, sonra saçı formaya salmaq üçün mus və ya gel vurulur. Saçlar əlin, darağın, biqudi və sıxacın köməyi ilə dalğalı  formaya salınır, saç sonda laklanır. Söhbət hansı üsuldan gedir?

A) Kimyəvi üsulla
B) Süni üsulla
C) İsti üsulla
D) Soyuq üsulla

**BƏRBƏR kvalifikasiyasına aid nümunə suallar**

**Modul: Saçların rənglənməsi**

Təlim nəticəsi: Saç boyalarının qruplarını və rəngləmə texnologiyasını bilir

Hansı boyalar saçı yalnız üzdən rəngləyir, bir neçə yuyulmadan sonra tökülüb gedir?

A) Təbii boyalar
B) Fiziki boyalar
C) Kimyəvi boyalar
D) Ağardıcılar

Boya qutusunun üstündə yazılmış "2/0" neçə oxunur?

A) qara
B) təbii orta qəhvəyi
C) təbii qara
D) tünd sarışın

Təlim nəticəsi: Saçın müxtəlif formalarda (Ambre, Balayaj, Refle vəs. ) boyanması texnikasını bilir, təsvir edir və nümayiş edir

Saç nazik və üfiqi tağlarla ayrılir, fen vasitəsilə üstündən hava vurulur, saçın rəngi ağardıcı ilə açılır. Söhbət melirovaniyenin hansı texnikasından gedir?

A) Ambre
B) Air Touch (Eir taç)
C) Şatuş
D) Refle

Təlim nəticəsi: Saç boyalarının qruplarını və rənglənmə texnologiyasını bilir və nümayiş edir

Saç boyalarının kataloqunda "0/66" mikstonu necə oxunur?

A) yaşıl mikston
B) bənövşəyi mikston
C) göy mikston
D) küllü mikston

**BƏRBƏR kvalifikasiyasına aid nümunə suallar**

**Modul: Müştəri xidməti**

Təlim nəticəsi: Saçın quruluşu, tərkibi, tipi, formasını bilir, saça və basin dərisinə qulluğu bacarır və nümayiş edir

Başa maska qoyarkən, masaj edərkən usta nəyi bilməlidir və nəyə diqqət etməlidir?

A) Başın quruluşuna
B) Saçın formasına
C) Saçın rənginə
D) Saçın tipinə

Təlim nəticəsi: Qadın (kişi, uşaq) saç kəsimlərinin texnologiyasını bilir,rəsmini təsvir edir və nümayiş edir

Saçı kəsərkən uzunsov sifəti necə korreksiya etmək olar?

A) Ön hissədə saçı qısa kəsməklə
B) Ön hissədə saçı uzun saxlamaqla
C) Arxa zonaya uyğunlaşdırmaqla
D) Saçı arxaya sığallı daramaqla

Təlim nəticəsi: Qadın saç kəsimlərinin texnologiyasını bilir, rəsmini təsvir edir və nümayiş edir

__________ ən çox dəbdə olan və əksər qadınlara yaraşan saç kəsimidir.

Boşluğu doldurun



A) Bob kare
B) Kare
C) Kaskad
D) Kanadka